# Türkiyə Baş nazirinin adından İƏT-in XIII Sammitinin iştirakçılarının şərəfinə nahar verilib

## *Prezident İlham Əliyev naharda iştirak edib*

Aprelin 14-də Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunun adından İstanbulda İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin iştirakçılarının şərəfinə nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

Mərasimdə çıxış edən Türkiyənin Baş naziri Əhməd Davudoğlu İslam Əməkdaşlıq Təşkilatının bu zirvə görüşünün səmərəli olacağına əminliyini ifadə etdi. Bu sammitin dünyanın çox mürəkkəb vaxtında keçirildiyini deyən Türkiyə hökumətinin başçısı İslam dünyasının İstanbuldan beynəlxalq aləmə sülh və əməkdaşlıq mesajı verdiyini diqqətə çatdırdı.

"İslam dünyası tarixdə bütün mədəniyyətlərin mərkəzi olub, ən güclü dövlətlər bu məkanda yaranıb", - deyən Əhməd Davudoğlu ümidvar olduğunu bildirdi ki, İslam Əməkdaşlıq Təşkilatı bu coğrafiyada sülh və sabitliyin bərqərar olmasına yardım edəcək.

Türkiyənin Baş naziri İslamı terrorla eyniləşdirməyə çalışan qüvvələrə qarşı birgə mübarizənin əhəmiyyətini vurğuladı, İslamla bağlı formalaşdırılan mənfi rəylərin aradan qaldırılması, Suriya, İraq və Liviyadan olan qaçqınlara yardımın göstərilməsi, İslam ölkələri arasında yüksək səviyyəli dialoqun baş tutması, iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi, İslam dünyasını parçalamaq təşəbbüslərinə qarşı birgə mübarizə aparılması, İslam dünyasına məxsus bütün işğal edilmiş ərazilərin, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tezliklə işğaldan azad olunması ilə bağlı ortaq mövqedən çıxış edilməsinin vacibliyini bildirdi.

Qeyd edək ki, İslam Əməkdaşlıq Təşkilatı 1969-cu ildə yaradılıb və özündə 60-a yaxın İslam dövlətini birləşdirir. BMT ilə sıx əməkdaşlıq edən təşkilatda bəzi ölkələrin müsəlman icmaları birləşib. Bir sıra beynəlxalq təşkilatların nümayəndələri də İslam Əməkdaşlıq Təşkilatı yanında müşahidəçi statusuna malikdirlər.

***AZƏRTAC***